## LÜTFİ ZADƏNİN BƏZİ SEVİMLİ KƏLAMLARI ...



- ***İnsanlar qeyri-səlis məntiqlə düşünürlər, lakin dəqiq məntiqlə danışırlar.***
- ***Mən özümü bəxtəvər hesab edirəm ki, elm aləminə belə bir yenilik gətirə bildim.***
- ***Həyatımdakı uğurlarımın təməlində Azərbaycan məktəbinin verdiyi təhsil və Şərq təfəkkürü dayanır.***
- ***Elm dəyişkəndir, amma həqiqət həmişə birdir.***
- ***Əgər hər şeyi tam dəqiqliklə ölçmək istəsək, çox şeyi ümumiyyətlə anlaya bilmərik.***
- ***Ən maraqlı problemlər, dəqiq cavabı olmayan problemlərdir.***
- ***Riyaziyyat yalnız dəqiqlik deyil, həm də uyğunluq sənətidir.***
- ***Vətənimin oğlu kimi qəbul edilməyim mənim həyatımın məğzi və şərəfimdir. Bakı və xalqım mənim qəlbimin qaynar guşəsində əbədi yer tutur.***
- ***Azərbaycan mənim doğma vətənimdir. Mən həmişə Azərbaycanın uğurlu gələcəyi barədə düşünürəm və bu istiqamətdə atılan hər bir addım məni sevindirəcək.***
- ***Ətrafıma boylananda müasirlərimizin çoxunu görmürəm.***
- ***Bəzən məni çoxdan görməyən adamla rastlaşanda, ondan eşidirəm: Bütün bu illər ərzində sən heç dəyişməmisən! Bu sözlərə mənim həmişə hazır cavabım var – bir dəfə həyatın dibinə çatmısansa, ondan da aşağısı yoxdur.***
- ***Xoşagəlməz söz eşitmisinizsə, ona belə cavab vermək olar: sizin dediklərinizi kompliment hesab edirəm. Bu, sizin qan təzyiqinizi aşağı salmağa kömək edər.***
- ***Burada, yalnız özünü ölümə məhkum edən işləyə bilər.*** *(Bu sözlər Lütfi kafedra müdiri işləyərkən iş otağının qapısının üstündə asılmış lövhədə yazılmışdı).*
- ***Həyata yalnız uğur qazanmaq vasitəsi kimi baxmaq olmaz.***
- ***Sabaha qalması mümkün olan işi bu gün görmə!***
- ***Mənim bir teoremim var və onunla öyünürəm. Bu teoremə görə, əvvəl-axır bütün restoranlar çinlilərin olacaq. Deməli, əvvəlaxır bütün kafedra müdirləri və dekanlar yalnız çinlilər olacaq,***

***çünki restoran işinin uğurla aparılmasında elmi-tədris bölmələrini idarə etmək üçün tələb olunan keyfiyyətlər lazımdır.***

- ***Mən sizin demədiyiniz hər şeylə tam razıyam.***